

# Ağdam: ümidin, inamın, arzuların şəhəri

**Yaşlı ağdamlıların söhbətinin əvvəli də, axırı da Ağdamla bağlı olur, doğma şəhərdə yaşadıqları günlərin xatirələrini danışırlar və təəssüflə bildirirlər ki, ötən 30 il ərzində hər dəfə Ağdam adı çəkiləndə qəlbimiz göynəyir, varlığımız titrəyirdi, itirdiyimiz yurd yerlərinin iniltisini eşidirdik. Kədərdən, qəmdən, qüssədən əynimizə köynək biçilmişdi, bu ayrılıq, bu həsrət bizi üzürdü. Səsimiz, ünümüz yetməyən, düşmən tapdağı altında əzilən Ağdam üçün tökülən göz yaşları bir yerə toplansaydı böyük bir ümman yaranardı. Lakin inanırdıq ki, gün gələcək, Azərbaycan otuz ilə yaxın erməni işğalı altında qalan torpaqları azad edəcəkdir. Və həmin şanlı gün gəldi... O, ilahi andan, tarixi qələbədən sonra ağdamlılar keçən hər günü şükranlıqla, minnətdarlıqla, sevgiylə qarşılayır və həsrətə, kədərə, ayrılığa, göz yaşlarına son qoyulduğu üçün xoşbəxtlərin xoşbəxtiyik deyirlər. Bu inamın və qətiyyətin mahiyyətində möhtərəm Prezidentimiz İlham Əliyevin illərlə yorulmadan, səbirlə, əzmlə apardığı mübarizə dayanır. İstər ölkədaxili, istərsə də xarici ölkələrdə keçirdiyi bütün görüşlərdə, beynəlxalq tədbirlərdə Prezidentin çıxışlarının əsas məğzi Ermənistanın işğalı ilə bağlı olurdu. Dövlət başçısı bütün bu illər ərzində hər kəlməsində dəyişməz mövqe göstərir, xalqımızın işğalla barışmadığını bəyan edirdi.**

Ermənistanın xunta rejimi, cani və qatil rəhbərlərinin göstərişi və bilavasitə iştirakı ilə 1993-2020-ci ilin noyabr ayına qədər işğalçılar Ağdamı tamamilə dağıdıb, böyük bir şəhəri yer üzündən silib, məkrli, yırtıcı niyyətlərini həyata keçiriblər. Bu yerlərin əbədi və əzəli sakinləri olan azərbaycanlılara qarşı qatı cinayət törədiblər, vaxtilə pənah gətirdikləri torpaqlara xəyanət ediblər. Görün, biz necə vəhşi bir düşmənə, varvarlara, körpə qatillərinə, qaraçı və köçəri bir tayfaya, erməni faşizminə qalib gəlmişik. Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi və müzəffər ordumuzun vuran qolu, gücü, qəhrəmanlığı sayəsində 30 ildən sonra doğma torpaqlarımıza qədəm qoyuruq, yurdun havasını uduruq, suyundan içirik, ağaclarının kölgəsində dincimizi alırıq.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq Ağdamı xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər. İşğal illərində düşmən Ağdam istiqamətində beş müdafiə xətti qurmuşdu və bu da onu göstərirdi ki, işğalçıların zəbt etdikləri bu yerlərdən çəkilmək fikri yoxdur. Qalib Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi və qətiyyəti sayəsində Ağdam bir güllə atılmadan, qan tökülmədən işğaldan azad edildi və iki il yarım əvvəl ağdamlıların həyatında yeni bir dövr başlayıb: Böyük Qayıdışa hazırlıq! 2021-ci il may ayının 28-də Prezident, Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən Ağdam şəhərinin yenidən qurulmasının ilk təməl daşını qoydu. Həm də 28 May - Respublika Günü ilə yanaşı, Ağdam şəhərinin bərpasının başlanğıc günü kimi də tarixə yazıldı. Haqq, ədalət öz yerini tutdu, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. İşğaldan azad ediləndən sonra Ağdamda bərpa və yenidənqurma işlərinə başlanılıb, "ağıllı şəhər" layihəsi əsasında yeni və müasir bir şəhər inşa edilir, Qafqazın Xirosiması kimi tanınan Ağdam Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, sülh, əmin-amanlıq şəhəri olacaq, doğma yurdlarından 30 ilə yaxın ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək. Ağdam şəhəri sürətlə və modern üslubda inşa edilir, iri infrastruktur layihələr icra olunur, iş yerləri yaradılır.

Doğma yurda, yeni Ağdama qayıdacaq insanları şəhərin əsas simvollarından biri olan Çay evinin, stadionun, yeni yaradılacaq Qarabağ Universitetinin harada inşa ediləcəyi maraqlandırır. Qeyd edək ki, Baş Plana əsasən Ağdam şəhərinin inzibati mərkəzi şəhərə birləşdirilən Seyidli kəndinin ərazisində olacaq. Vaxtilə məşhur olan Ağdam bazarı fərqli yerdə inşa ediləcək. Ağdamlıların qürurla xatırladıqları Çay evi şəhərin mərkəzi parkında qurulacaq. Bizi dünyaya tanıdan "Qarabağ" futbol klubunun stadionu şəhərə birləşdirilən Sarıhacılı kəndində yerləşən idman kompleksinin yerində tikiləcək. Eyni zamanda stadion ilə üz-üzə Qarabağ Universiteti yerləşəcək. Çoxmərtəbəli binalarla yanaşı, Ağdam şəhərində inşa ediləcək 1750 həyət evi ümumilikdə 10.000 nəfər əhalinin yaşayışı üçün nəzərdə tutulub. Baş Plana əsasən Ağdamda ilk dəfə olaraq mərkəzləşdirilmiş qazanxana sistemi yaradılacaq. Şəhərdə tullantı sularının yenidən texniki su kimi kənd təsərrüfatına istifadəyə yararlı hala gətirilməsi üçün sutəmizləyici qurğular inşa ediləcək.

İki il yarımdır ki, Ağdam düşmən tapdağından azad olunub. Düşmənin dağıtdığı və xarabalığa çevirdiyi Ağdamın uçuq divarları, kol-kos basmış küçələri ağdamlılar üçün müqəddəs və əzizdir. Dövlətimizin başçısının tapşırığı ilə işğaldan azad edilən və minalardan təmizlənən ərazilərə getmək üçün avtobus marşrutu açılıb, indiyə kimi yüzlərlə insan ata-baba yurduna baş çəkib. Qocaman şəhərin sakinləri bildirirlər ki, Evoğlu-Əfətli yolundan Ağdamın mərkəzinə təxminən on beş dəqiqəlik yoldur. Bu yolu keçmək üçün 27 il səbirlə, dözümlə gözlədik və nəhayət, 2020-ci il 10 noyabr tarixində imzalanan üçtərəfli Bəyanatdan sonra bu yoldan ilk dəfə Ağdamın mərkəzinə hərbi texnikalarımız, tanklarımız, qələbəyə imza atan ordumuzun əsgərləri keçdi. Qeyd edək ki, növbəti ildə Ağdam şəhərində iki yaşayış massivinin inşasına başlanılacaq, daha sonra isə 3 yaşayış massivinin tikintisi aparılacaq. Ağdamda Böyük Qayıdışa dair Dövlət Proqramının birinci mərhələsində 12 kəndin təhvil verilməsi nəzərdə tutulub. Onlardan 3 kəndin inşasına növbəti ildə başlanılacaq. Ümumilikdə, 2026-cı ilin sonuna kimi 5 yaşayış massivi, 12 kənd öz sakinlərinə təhvil veriləcəkdir. Qeyd edək ki, iki il az vaxt olsa da, şəhərdə böyük işlər görülür, həyat əhəmiyyətli layihələr icra edilir. Zavodlar tikilir, Sənaye Parkı yaradılır, avtomobil və dəmir yolu çəkilir, iş yerləri yaradılır. Ardıcıl olaraq təhsil və səhiyyə müəssisələrinin tikintisi də aparılır. Əhalinin sayına görə hər kənddə məktəb və uşaq bağçası olacaq. Yaşı yüz ildən çox olan 1 saylı şəhər məktəbinin üçmərtəbəli binası Ağdamın mərkəzində iki hektar ərazidə yerləşir və 960 şagird üçün nəzərdə tutulub. Yuxarıda qeyd etdiyimiz kimi, Ağdam şəhərinin təsdiqlənmiş Baş Planında Qarabağ Universitetinin inşası da nəzərdə tutulub. Bu universitetdə 10 min tələbə təhsil alacaq. Digər ölkələrdən gələn tələbələr də müxtəlif sahələr üzrə təhsil almaq imkanı əldə edəcəklər. Şəhərin keçmiş mərkəzində açıq səma altında İşğal və Zəfər Muzeyi inşa olunacaq. Muzeylərin ümumi ərazisi 22 hektar yarımdır, bunun da 15 hektarı açıq səma altında olacaqdır. Milli memarlıq və modern üslubda inşa edilən Ağdam şəhərinin nəinki bölgədə, həmçinin Cənubi Qafqazda analoqu olmayacaq, bu yeni şəhər sakinlərinin ümidi, inamı, arzuları ilə nəfəs alacaq, gündən-günə gözəlləşəcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**